**A.Y.QASIMOVA**
*müəllim, doktorant*
*e.mail: aynurmehdiyeva84@gmail.com*

**Bakı Slavyan Universiteti**
(Bakı şəh., S.Rüstəm küç., 25)

# TƏHSİLİN İNKİŞAFI ÜZRƏ DÖVLƏT STRATEGİYASINDA MÜƏLLİM HAZIRLIĞI PROBLEMİ

***Açar sözlər:*** *təhsil, strategiya, ali məktəb, müəllim, qabiliyyət*
***Ключевые слова:*** *образование, стратегия, высшее образование, учитель, способность*
***Key words:*** *education, strategy, high school, teacher, ability*

Azərbaycan dövlət müstəqiliyini əldə etdikdən sonra cəmiyyətdə formalaşmağa başlayan ictimai-iqtisadi sistemin doğurduğu dəyişikliklər, respublikada siyasi quruluşun yeniləşməsi, iqtisadiyyatda bazar münasibətlərinə keçid, inkişaf etmiş ölkələrə və dünya birliyinə inteqrasiya olunmaq meyillərinin güclənməsi başqa sahələrdə olduğu kimi təhsil sahəsində də əsaslı islahataların aparılmasını nəzərədə tuturdu. Müstəqilliyin ilk illərində təhsil sistemində forma və məzmun baxımında dəyişikliklərin aparılmasında cəhdlərin edilməsinə baxmayaraq Azərbayacan təhsilinin beynəlxaq standartlar əsasında qurulması orta və ali məktəb qarşısına bir sıra vəzifələrin yerinə yetirilməsini vəzifəsini qoyurdu. Bütün bunlar təhsilin, o cümlədən ali təhsilin keyfiyyəti məsələsini ön plana çıxarır. Məhz buna görə də Azərbayacan təhsilində genişmiqyaslı islahatlar aparılmalı, ölkə iqtisadiyyatının inkişafı üçün müasir dövrün tələblərinə cavab verən kadr hazırlığını təmin edən keyfiyyətli yeni təhsil istiqaməti müəyyənləşməlidir. Bugün dünyanın aparıcı ölkələri təhsil sistemlərini müasir tələblərə uyğun olarq yenidən qurmağa, geniş və hərtərəfli islahatlar proqramı həyata keçirməyə başlamışlar. Azərbaycan Respublikasında səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələrinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan, iqtisadi cəhətdən dayanıqlı təhsil sistemini yaratmaq məqsədi ilə “Azərbaycan 2020: Gələcəyə Baxış” konsepsiyasının təhsillə bağlı ana xəttinə uyğun olaraq 2013-cü ilin oktyabrında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə “Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası” qəbul edilmişdir.(1) Strategiyanın həyata keçirilməsi təhsilin məzmununun, təhsil infrastrukturunun, təhsili idarəetmə sisteminin və kadr hazırlığının qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək ölkədə biliklərə əsaslanan iqtisadiyyatın bərqərar olmasını, informasiya cəmiyyətinin təşəkkülünü və ölkənin davamlı inkişafını təmin etməkdən ibarətdir.

Qeyd olunanlarla yanaşı sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruri məsələ kimi qeyd edilmişdir. Strategiyada müəllim hazırlığı və nüfuzunun artırılması məsələsinə xüsusi yanaşma qeyd edilmişdir. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” Azərbaycan Respublikasında keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri nəzərdə tutur.

Birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir.

İkinci strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir. Üçüncü strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönümlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir. Dördüncü strateji istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri ehtiva edir. Beşinci strateji istiqamət Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasıdır. Bu istiqamət, o cümlədən müxtəlif mənbələrdən istifadə olunmaqla təhsili maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsini, təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçidi, ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsini, Təhsilin İnkişafı Fondunun yaradılmasını nəzərdə tutur. Biz bilirik ki, təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşması, əsasən, müəlimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən asılıdır. Səriştəyə əsaslanan təhsil ölkənin sosial-iqtisadi inkişafına daha effektiv xidmət göstərir. Bunu nəzərə alaraq ali məktəbin bütün iş formalarında (mühazirə, seminar, tələbə sərbəst işləri, pedaqoji praktikada) nəzəriyyə və təcrübənin vəhdəti təmin olunmalı, tələbənin nəzəri bilikləri və onların tətbiqinə, müstəqil yaradıcı düşüncəsinin inkişafına, yeni pedaqoji təfəkkürün formalaşmasına xüsusi diqqət yetirilməlidir. Ali məktəblərdə müəllim hazırlığını pedaqoji fəaliyyətin strukturuna uyğun şəkildə – pedaqoji qabiliyyətlər üzrə qurmaq daha səmərəli təşkil oluna bilər: müəllim hazırlığını təkcə akademik və didaktik qabiliyyətlərlə məhdudlaşdırma olmaz. Müasir müəllim həm də digər zəruri pedaqoji qabiliyyətlərə yiyələnməlidir. Bu zaman müəllim daha hazırlıqlı, səriştəli, nüfuzlu, rəqabət qabiliyyətli peşəkar kadr kimi yetişə bilər, daha səmərəli fəaliyyət göstərər. Ali məktəb müəllimi müəyyən pedaqoji qabiliyyətlərə malik olmalıdır:

**Konstruktiv qabiliyyətlər** tələbə şəxsiyyətini lahiyələşdirmə, öz fəaliyyətinin strate-giyasını müəyyənetmə, təlim-tərbiyənin taktiki məqsədini reallaşdırır. Diaqnostlaşdırma və onunla qırılmaz surətdə əlaqədar olan proqnozlaşdırma pedaqoji prosesi düzgün istiqamətləndirməyə şərait yaradır. Əlində dəqiq diaqnozu olan və əlverişli proqnoza əsaslanan peşəkar pedaqoq təhsil-tərbiyə fəaliyyətini səmərəli və məhsuldar şəkildə təşkil edir, gələcək fəaliyyətin modelini qura bilir, həm özünün, həm də tələbələrinin fəaliyyət növlərini layihələşdirir.

**Didaktik qabiliyyətlər** məlumatın seçilməsi, tədris materialının hazırlanması, şəxsiyyətyönümülü imkanlarının təyini, təlim metodlarının seçilməsində, intizamın bərpa edilməsində və işgüzar təlim şəraitinin yaradılmasında, tələbələrin idrak maraqlarının, tələbatlarına həvəs, öyrənənlərdə müstəqillik, təşəbbüskarlıq və təlim-idrak fəallığının artırılmasında təzahür edir.

**Təşkilati qabiliyyətlər** tələbələrin fəaliyyətinə düzgün rəhbərlikdə, onları aktiv təlim-idrak prosesinə cəlb etməkdə, asudə vaxtlarını günün tələbləri səviyyəsində qurmaq bacarığında, habelə özünün ali məktəbdə pedaqoji əməyini təşkil etmək məharətində istifadə olunur.

Akademik qruplarda şəxsiyyətlərarası münasibətləri tənzimləmək, tələbələri ictimai işlərə cəlb etmək və vəzifə bölgüsü aparmaq, planlaşdırmaq, görülmüş işləri yekunlaşdırmaq və s. təşkilati qabiliyyətlərlə bağlıdır. Müəllim təkcə tələbələrin fəaliyyət və davranışını deyil, öz fəalliyyətini də real şəraitə uyğun dəyişdirməyi bacarmalıdır.

**Kommunikativ qabiliyyət** münasibətlərin nizama salınması, tələbələrlə, öz həmkarları və rəhbər işçilərlə məqsədəuyğun pedaqoji ünsiyyətin yaradılması, tərbiyə işlərinin həyata keçirilməsi, pedaqoji prosesin gedişinin təhlili, yol verilmiş səhvlərin, yaxud arzuolunmaz nəticələrin səbəblərinin aşkarlanması və qısa zaman kəsiyində korrektə edilməsilə bağlıdır.

**Suqqestiv qabiliyyət** (latınca suqqestio – təlqin, eyham, işarə deməkdir). Bu, təhsil alanlara təlqinedici, iradi-emosional təsir göstərməkdə ifadə olunur.

**Perseptiv qabiliyyət** (latınca auctorotas, almanca autoritat – nüfuz, hakimiyyət deməkdir) – təhsil alanlara iradi-emosional təsir göstərməklə onların nüfuzunu qazanmaqda özünü göstərir. Avtoritar qabiliyyət müəllimin bir sıra kompleks keyfiyyətləri, xüsusən də, qətiyyət, təkidlilik, dözüm, tələbkarlıq və digər iradi keyfiyyətləri, yetirmələrinin təhsil və tərbiyəsi üçün məsuliyyət hissi, özünəinam kimi şəxsi psixi xüsusiyyətləriylə sıx vəhdətdədir.

**Qnostik qabiliyyət** (yunanca qnosis – bilik, qnostis – idrak deməkdir) dedikdə, müəllimin ixtisas fəaliyyətinin əsasını təşkil edən bilik və bacarıqlar sisteminə dərindən bələd olması başa düşülür. Təlim-idrak fəaliyyətinin effektivliyini təmin edən amillərin müəyyənləşməsi, fərziyyənin irəli sürülməsi və yoxlanılması, ziddiyyətlərin aşkarlanması və həll edilməsi, alınan nəticələrə tənqidi münasibət – qnostik qabiliyyətlərlə bağlıdır. Qnostik qabiliyyət pedaqoji nəzəriyyəyə dərindən bələd olması başa düşülür. Təlim-idark fəaliyyətinin effektivliyini təmin edən amillərin müəyyənləşdirilməsi, fərziyyənin irəli sürülməsi və yoxlanılması, ziddiyyətlərin aşkarlanması və həll edilməsi, alınan nəticələrə tənqidi münasibət – qnostik qabiliyyətlərlə bağlıdır. Qnostik qabiliyyət pedaqoji nəzəriyyəyə dərindən bələd olmaq və ondan yaradıcı şəkildə istifadə etmək, qabaqcıl təcrübəni öyrənib ümumiləşdirmək, elmi-tədqiqat fəaliyyəti ilə məşğul olmaq, təkcə öz fənnini deyil, onun tədrisi metodikasını və habelə psixologiyanı dərindən bilmək, elmi yenilikləri müntəzəm izləmək və innovasiyaları təhsilin məzmununa daxil etmək bacarıqları ilə müəyyənləşir. (4) Pedaqoji faəliyyətə yaradıcı münasibət və təlim-tərbiyənin ən yeni metodlarından səmərəli surətdə istifadə olunması müəllimin qnostik qabiliyyətlərinin göstəricisidir. Pedaqoji qabiliyyətlər bir-biri ilə sıx əlaqədə həyata keçirilir. Bu qabiliyyətlərin hər birinin özünəməxsus tərəfləri müəllimin fəaliyyətində özünü göstərir.

Müəllim hazırlığında pedaqoji təcrübənin rolunu gücləndirmək lazımdır. Univerisitet təhsilində qısamüddətli pedaqoji təcrübə səriştəli müəllim hazırlamq üçün yetəli deyildir. Kadr hazırlığı probleminin həlli yollarından bir digəri innovativ təlim texnolgiyaları, qiymətləndirmə metodologiyası, müasir vasitə və resurslar, stimullaşdırıcı mexanizmlər və bir sıra digər vasitələrin tətbiqi ilə hazırlıq prosesinin keyfiyyətini yüksəltmək olar. Təhsil sisteminin daha da keyfiyyətli göstəricilərlə təmin etmək məqsədi ilə mövcud korpusunun təkmilləşdirilməsi tələb olunur. Müəllim hazırlığında başlıca strategiya fənn biliklərinin mənimsənilməsindən daha çox tələbələrin peşə uyarlılığına, pedaqoji ustalığın inkişafına, zəruri kompetensiyaların formalaşdırılmasına, müasir təlim texnologiyalarının mənimsənilməsinə yönəldilməlidir. Təhsil islahatlarının uğurla həyata keçirilməsi üçün müəllimin ictimai nüfuzunun özünə qaytarılması, onun yüksək maddi və mənəvi motivasiyası, pedaqoji təhsilə istedadlı gənclərin cəlb olunması çox vacib amillərdir.(2) Müəllim sənətinə istedadlı gənclərin cəlb edilməsi məqsədi ilə dövlət sifarişinin imkanlarından səmərəli istifadə olunmalı, orta məktəb dövründən başlayaraq pedaqoji peşə yaradılmalıdır. Müəllim hazırlığı sistemində internatura modelinin tətbiqi də səmərəlidir. Bu model gələcək müəllimlərin diferensasiyasını həyata keçirməyə, müəllimlik peşəsinə təsadüfi gələn gənclərdən xilas olmağa, pedaqoji peşəyə daha yararlı, səriştəli kadraları cəlb etməyə kömək göstərər.

**Ədəbiyyat**

1. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı fəaliyyət planı. “Respublika” qəzeti, 17 avqust 2016-cı il, № 178.
2. Alışov M.Ə. Təhsil və cəmiyyət: Təhsil islahatlarının dinamikası. “Adiloğlu” Bakı-2020, 222 s.
3. Əhmədov H.H. Azərbaycan Təhsilinin İnkişafı Strategiyası, Bakı: Elm, 2010, 799 s.
4. Rüstəmov F.A. Ali məktəb pedaqogikası, Bakı, Nurlan, 2007, 576 s.

**А.Я.Гасымова**

**Проблема обучения учителей**
**в государственной стратегии развития образованя**

***Резюме***

В стате определены направления соответствуюших широкоммасштабных реформ в сфере образования и подготовки кадров, обеспечивающих соответствие требованиям современной эпохи. Отмечены реконструкция системы упровления образоавнием для повыщения, развития кадрового потенциала в етой сфере и повышения престижа профессии учителя. Формирование учащихся как образованных людей зависит главным образом от уровня профессионализма педагога.

**A.Y.Gasimova**

**The problem of teacher training in the state strategy for the development of education**

***Summary***

The article about large-scale reforms in the education and training of staff to ensure that meet the requirementsof the modern trend is reflected in the identification of issues. Recanstruction of the education management system to improve the quality of education was noted in this area and increasing the prestige of the teacher’s profession. The formation of student as educated and competent people depends mainly on the level of professionalism of the teacher.

*Rəyçi: dos. K.Səmədov*

*Redaksiyaya daxil olub: 17.05.2022*